## KEYFİYYƏT SİYASƏTİ

"AZCD Group" QSC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) başlıca məqsədi öz işində keyfiyyət prinsipini əsas tutaraq lisenziya çərçivəsində özəl, mülki və sənaye yönümlü tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işlərinin layihələndirməsi və inşa edilməsi kimi xidmətlər göstərməklə müştərilərin tələblərini yüksək səviyyədə təmin etməkdir.

Bununla əlaqədar olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən bu istiqamətdə aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:

- ISO 9001:2015 standartının tələblərinə uyğun olaraq Keyfiyyəti İdarəetmə Sisteminin işini qurmaq və inkişaf etdirmək;
- Qanunvericiliyin tələblərinə əməl etməklə Cəmiyyətdə və onun struktur bölmələrində keyfiyyəti idarəetmə sistemini davamlı olaraq yaxşılaşdırmaq;
- Müştərilərin tələb və təkliflərinə uyğun olaraq bina və qurğuların tikinti-quraşdırma işlərini və bununla əlaqədar göstərilən digər xidmətlərin keyfiyyətini daim artırmaq;
- Cəmiyyətin və onun struktur bölmələrinin fəaliyyəti ilə bağlı tətbiq edilən normativ sənədlərin tələblərini yerinə yetirmək;
- Cəmiyyətin əməkdaşlarının peşəkarlıq səviyyəsini daim inkişaf etdirmək və keyfiyyətli iş görülməsi istiqamətində onların motivasiyasını artırmaq;
- Müştərilərin məmnunluğunu qazanmaq üçün Cəmiyyətdə və onun struktur bölmərində bütün mövcud riskləri nəzərə almaqla müqavilə öhdəliklərini vaxtında və keyfiyyətlə yerinə yetirmək;
- Yerli və beynəlxalq səviyyədə fəaliyyət sahəmizdə qabaqcıl tikinti şirkəti kimi tanınmaq;
- Biznesin inkişafını təmin etmək məqsədi ilə şirkətin fəaliyyəti üzrə keçirilən tenderlərdə, görüşlərdə, sərgilərdə, forumlarda fəal iştirak etmək;
- Partnyorlarla əlaqələrin idarə edilməsinə hədəflərə qarşılıqlı olaraq çatmaq baxımından yanaşmaq;
- Peşəkar insan resursları rezervlərinin, müasir infrastrukturla təmin edilmiş iş yerlərinin və effektiv iş mühitinin yaradılmasını əsas meyarlardan biri kimi qəbul etmək.

"AZCD Group" QSC bu siyasəti, keyfiyyət hədəflərini və məqsədlərini müəyyən etmək və nəzərdən keçirmək üçün bir əsas götürür və ictimaiyyət, şirkətin əməkdaşları, müştəriləri, partnyorları və təchizatçılarına bəyan etməyi öhdəsinə götürür.

**Direktor:**
**Fuad Ələkbərov**

**Avqust 2021**